Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 421

## QƏRAR

Bakı şəhəri, 21 noyabr 2023-cü il

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 501; 2022, № 4, maddə 412, № 10, maddə 1221; 2023, № 3, maddə 435; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 oktyabr tarixli 362 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci bənd üzrə:

1.1. "ixtisasları" sözündən sonra "(fənləri)" sözü əlavə edilsin;

1.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Sertifikatlaşdırma təhsilverənlərin tədris apardığı dildə keçirilir.".

2. 4.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.2. Sertifikatlaşdırmadan keçmiş təhsilverənlərə "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq elektron sənəd formasında yaradılan sertifikat verilir. Sertifikat sertifikatlaşdırmanın nəticələri elan olunduqdan sonra 5 (beş) iş günü müddətində hazırlanır.".

3. Aşağıdakı məzmunda 4.2-1 - 4.2-6-cı bəndlər əlavə edilsin:

"4.2-1. "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" vasitəsilə əldə edilmiş sertifikatın kağız daşıyıcıda olan surətinin təsdiqi "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

4.2-2. Sertifikatın həqiqiliyi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlanıla bilər.

4.2-3. Sertifikat Sertifikatlaşdırma Şurasının sədrinin elektron imzası ilə təsdiq edilir.

4.2-4. Sertifikat təhsilverən üçün açılmış "Şəxsi kabinet"də yerləşdirilir.

4.2-5. Sertifikatda aşağıdakı məlumatlar əks olunmalıdır:

4.2-5.1. sertifikatın nömrəsi və verildiyi tarix (altsistem tərəfindən verilir);

4.2-5.2. təhsilverənin sertifikatlaşdırmada iştirak etdiyi tarix;

4.2-5.3. sertifikatın etibarlılıq müddəti (müddətin başa çatdığı tarix və ya 3-cü dəfə sertifikatlaşdırmadan keçmiş şəxslər üçün müddətsiz olduğu göstərilir);

4.2-5.4. təhsilverənin identifikasiya məlumatları (soyadı, adı, atasının adı və doğum tarixi) və FİN kodu;

4.2-5.5. təhsilverənin çalışdığı təhsil müəssisəsinin (tabeçiliyi göstərilməklə) adı;

4.2-5.6. təhsilverənin tədris etdiyi ixtisasın (fənnin) adı;

4.2-5.7. təhsilverənin sertifikatlaşdırmada iştirak etdiyi dil;

4.2-5.8. təhsilverənin test və müsahibə mərhələlərində topladığı balı;

4.2-5.9. sertifikatın təhsilverənə Azərbaycan Respublikasının dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil fənləri tədris edilən digər dövlət təhsil müəssisələrində) pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ verdiyinə dair qeyd.

4.2-6. Sertifikatda bütün məlumatlar Azərbaycan dilində yazılır.".

4. Həmin Qaydaya əlavə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

Azərbaycan.- 2023.- 23 noyabr, № 255.- S.4.